# X sinfin "Azərbaycan tarixi" üzrə "XIII-XV əsrlərdə mədəniyyət" mövzusunda inteqrasiyanın rolu

**Aybəniz Almazxan qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aybnizmmmdova16@gmail.com

**Rəyçilər:** p.ü.f.d., T.M. İsayeva,
p.ü.f.d., prof. İ.H. Cəbrayılov

**Açar sözlər:** Azərbaycan tarixi, təlim prosesi, inteqrasiya, mədəniyyət
**Ключевые слова:** история Азербайджана, процесс обучение, интеграция, культура
**Key words:** history of Azerbaijan, training, integration, culture

Müstəqil dövlətimizdə təhsil sahəsində aparılan islahatların məqsədi, əsas məsələlərindən biri vətənpərvər, yüksək təhsilli, təlim-tərbiyəli şəxsiyyət yetişdirməkdir. Bütün bunlar üçün təhsil, tərbiyə, inkişaf həyata keçirilməli, bacarıqların formalaşdırılmasında metod və üsulların tətbiqi qaçılmazdır. Belə ki, təhsil proqramında tələb edilir ki, hər bir dərs özlüyündə təhsil alanlar üçün təfəkkür və intellektual məkanlı olmalıdır. Təlim prosesinin yüksək səviyyəli olması üçün təlim fəaliyyəti də stimullaşdırıcı olmalıdır. Müasir dövrdə hər şey inkişaf və təkamül edir. Bu zaman təhsildə fənlərin bir-birinə inteqrasiyasına ehtiyac yaranır. Fənlər və elmlər bir-biri ilə qədim zamanlardan bəri sıx əlaqədə olmuşdur, bu proses müasir dövrdə də qalmaqdadır. Fənlərin inteqrasiyası şagirdlərin biliklərinin daha da möhkəmləndirilməsini və fəallaşmasını təmin edir. Bəşəriyyətin tarixi boyu proqressiv xarakter daşıyan yeniliklər diferensial və həmçinin inteqrativ yanaşmaların fonunda yaranmışdır. Bütün elm sahələrində, o cümlədən tarix fənninin digər fənlərlə inteqrasiyası önəmli yer tutmuşdur. Təlim prosesində "inteqrasiya" və ya "inteqrativlik", təlimin keyfiyyətinə müsbət təsir göstərir. İnteraktiv təlim metodu şagirdlərdə dərsdə maraq oyadır, şagirdlərdə tədqiqatçılıq və yaradıcılıq bacarıqlarının formalaşmasına sövq edir, onlarda fənlər arasında əlaqələrin yaranmasına müstəqil bilik və bacarıqlar əldə etməsinə şərait yaradır. O zaman deyə bilərik ki, günümüzdə təlim prosesində inteqrasiyadan istifadə elmi dünyagörüşünü formalaşdırır. Fənlərarası əlaqə təhsilverici, tərbiyəedici və inkişafetdirici və təlim prinsipi funksiyalarına da malikdir.

Azərbaycan tarixi fənn kurikulumunda siniflər üzrə mövzular "Ümumi tarix", "Coğrafiya", "Ədəbiyyat", "Ana dili", "Riyaziyyat", "İKT" və s. fənnlərə inteqrasiya edir. Azərbaycan tarixi kurikulumunun fənlərarası inteqrasiyası müxtəlif fənlərin standartlarının inteqrasiyası əsasında həyata keçirilməklə reallaşdırılır. Azərbaycan tarixinin inteqrativ kurikulumu aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

* təlimin fəal, cəlbedici və əyləncəli olması;
* çoxlu hissələrə bölünməməsi;
* məzmununun sadə, əhatəli və anlaşıqlı olması;
* fənlərinin sayının çox olmaması (iki, üç və dörd fənn);
* eyni konsepsiyanın iki müxtəlif fəndə öyrənilməsi;
* təlimin müxtəlif mərhələlərinin əlaqələnədirilməsi (şaquli inteqrasiya);
* yüksək nailiyyət səviyyəsinin və intellektual bacarığın inkişafının stimullaşdırılması (3, s. 31).

Azərbaycan tarixi ölkəmiz ərazisində yaşamış və yaşayan insanların həyatının bütün sahə-

lərini və təzahürlərini əhatə etdiyi üçün onun başqa fənlərlə, başqa bilik sahələri ilə yüksək bağlılığı vardır. Buna görə də Azərbaycan tarixi fənninin hər mərhələsində üfiqi inteqrasiya gözlənilməlidir. Bu şagirdlər tərəfindən fənnin məzmununun mənimsənilməsinin zəruri şərtlərindəın biridir. Azərbaycan tarixinin tədrisində iki tip inteqrasiya tətbiq etmək məqsədə uyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfiqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (üfiqi) inteqrasiya daxildir.

Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumları)" sənədi və onun əsasında hazırlanmış Azərbaycan tarixi fənn kurikulumu fəndaxili və fənlərarası əlaqələrin tətbiqinə imkan yaradır. Ənənəvi təlimdən fərqli olaraq tarix fənn kurikulumu şagirdi obyektə deyil, subyektə çevirir, bununla yanaşı inteqrasiyanın yaradılmasına, lazımi nəticənin əldə edilməsinə, əsasən də məqsədə çatılmasına şərait yaradır (6, s. 111).

"Azərbaycan tarixi" fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzuların, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Məsələn, Azərbaycan tarixi "XIII-XV əsrlərdə mədəniyyət" mövzusuna nəzər salaq.

**Təlimin məqsədi:** Azərbaycanın XIII-XV əsrlər mədəniyyətinin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir. Azərbaycan mədəniyyətini türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir. Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar hazırlayır.

**İnteqrasiya:** Üm t.5.1.1.,5.1.3. Təlim forması kollektiv iş.

**Təlim üsulu:** Beyin həmləsi, ardıcıl suallar üsulu.

**Resurslar:** Elektron dərsliklər, dərslik, şəkillər, filipşat, marker və s.

XIII-XV əsrlərdə ilk monqol yürüşləri Azərbaycanda mədəniyyətin inkişafına zərbə vurmuşdur. İntibah dövrü ilə müqayisədə geriləmələr baş vermişdir. Bunun səbəbi monqol yürüşü idi. Monqolların bütlərə sitayiş etməsi, məscidlərin məhv edilməsinə, yerinə bütxanaların yaradılmasına, islam dininə, məktəb və maarifinə böyük təsir göstərmişdir. XIII əsrin sonunda Qazan xan islamı qəbul etdikdən sonra yenidən məscid və mədrəsələrin bərpası olmuşdur. Buradan belə bir nəticəyə gələ bilərik ki, monqol yürüşləri və onların burada məskunlaşması ilə bizim ölkəmizin daxilində baş verən hadisələr arasında oxşarlıq vardır. Bu mövzuda inteqrasiya şagirdlərə təkcə mədəni hadisələri öyrətmir, həmçinin bu dövrü tam halda dəyərləndirməyə, hadisə və təzahürlər arasındakı oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqəsini müəyyənləşdirməyə imkan yaradır.

Dövrün mühüm hadisələrindən biri Marağa rəsədxanasının tikilməsi idi. Bu zaman biz müasir dövrlə əlaqələndirməyə müraciət edə bilərik. Misal üçün: Müasir dövrdəki rəsədxanalarla və yaxud Şamaxı Rəsədxanası ilə Marağa rəsədxanasının venn diaqramı ilə müqayisə edərək oxşar və fərqli xüsusiyyətlərini göstərə bilərik.

XIII əsrin dahi şəxsiyyətlərindən biri olan Nəsrəddin Tusi haqqında şagirdlərə məlumat verməklə belə XIII əsr mədəniyyəti, sosial-ictimai münasibətləri haqqında kifayət qədər məlumat vermək mümkündür. Məsələn Tusinin "Əxlaqi Nasiri" əsəri əsrlər boyu orta və yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunur. Tusi burada ailə, insan, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürlərə, etik-fəlsəfi fikirlərə yol vermişdir. Belə ki, təkcə bu kitabla belə həmin dövrdəki insanların ictimai-məişət həyatları ilə bağlı kifayət qədər məlumat əldə edə bilərik.

Bu dövrdə bir çox elmi və bədii əsərlər də yazılmışdır. Buna biz Fəzlullah Rəşidəddin, Həmdullah Qəzvin, Nizamməddin Şami, Suli Fəqih, Mustafa Zəriri misal göstərə bilərik. Belə ki, onlar öz əsərlərində müəyyən məlumatlar vermişdir. Məslən Fəzlullah Rəşidəddinin "Ca-

me ət-təvarix" əsəri monqol yürüşlərinə həsr olunmuşdur. Nizaməddin Şamidə monqol dövrünə və Əmir Teymurun yürüşlərinə dair əsərlər yazmışdır. Hadisələrdən bəhs edərkən fənlərarası inteqrasiyadan istifadə edərək ədəbiyyat fənninə müraciət edə bilərik. Belə ki, XIII əsrdən etibarən, obyektiv tarixi gerçəkliyin təsiri altında Azərbaycan torpaqlarında əsasən ərəb və fars dillərində yaradılan əsərlərdən əlavə həmçinin doğma dildə yazan şair və sənətkarların sayının get-gedə artdığını görürük. Belə ki, həmçinin fəndaxili inteqrasiyadan istifadə edərək öncəki dərslərə müraciət edərək, intibah mədəniyyəti dövrü ilə XIII-XV əsr mədəniyyətini müqayisə edə bilərik. Burada həmçinin "Kitabi-Dədə Qorqud" dastanının təhlilini də bir konsepsiya kimidə seçə bilərik. Belə ki, XIII-XV əsrlərdə ana dilindən daha çox istifadə edilməsi VII-VIII əsrlərdə Azərbaycan xalqın təşəkkül tapması ilə sıx bağlıdır. Müəllim dastana müraciət edərək, onu təhlil edərək xalqın formalaşmasını onun sonrakı ədəbi və mədəni həyata təsirini açıb göstərə bilər. Bu şəkildə şagirdlərdə mədəni irsin əsrlər boyu formalaşma nəticəsində qədim köklərə dayanaraq yarandığını və həmin köklər əsasında inkişaf etdiyini göstərə bilər.

İncəsənət nümunələri haqqında məlumat verərkən təsviri incəsənət fənninə inteqrasiya edə bilərək, XIII-XV əsrdəki memarlıq və digər incəsənət nümunələri haqqında xarici rəssamların əsərlərinə müraciət edərək məlumat verə bilərik. Həmçinin ibtidai icma quruluşu mövzusuna toxunaraq, mədəniyyətin nə qədər inkişaf etdiyini şagirdlərə göstərə bilərik, memarlıq abidələrində isə intibah mədəniyyəti tikililərini müqayisə edə bilərik. İntibah dövrünün mühüm abidələrindən olan Xudafərin körpüsü ilə XIV əsrin memarlıq abidəsi olan Şirvanşahlar sarayını göstərə bilərik və yaxud da ümumi tarixə müraciət edərək həmin dövrdə Avropada və ya Şərqdə tikilmiş memarlıq abidələrini göstərə bilər.

Eyni zamanda, mədəniyyət mövzusunda Ümumi tarix fənninə inteqrasiya olunur. XIII-XV əsrdə dünyada və Azərbaycanda baş verən hadisələri təhlil edə bilərik. XIV-XVII əsrlərdə mədəniyyət sahəsində Avropada intibah dövrü başlandığı halda Azərbaycanda bu XI-XII əsrdə baş vermişdir. Qərbi və Mərkəzi Avropanı əhatə edən İntibah dövrünün fərqləndirici xüsusiyyəti mədəniyyətin yeni, mahiyyətcə kübar xarakter alması və insanı ön plana çıxarması ilə səciyyələndiyini göstərə bilərik.

Müəllim Təbriz Ali Mədrəsəsindən bəhs edərkən Avropada o dövrdə yaranan ilk ali məktəb olan Boloniya Universitetini misal gətirə bilər, onlar arasındakı oxşar və fərqli cəhətləri göstərə bilər. Müəllim  Azərbaycandan fərqli olaraq Avropada mədəniyyət sahəsində böyük irəliləyişlər baş verdiyini qeyd edə bilər. Belə ki, səlib yürüşləri zamanı Şərq-İslam sivilizasiyası ilə təmasda olub, xeyli yeni məlumatlar əldə edirlər. Bununla belə Asiya ölkələrinə edilən səyahətlər nəticəsində həmin ölkələr haqqında yeni təsəvvürlər yaranmış və coğrafi xəritələr çəkilmişdir. Belə ki bu zaman müəllim sinxron cədvəllərdən istifadə edərək. Eyni əsrlər üzrə Avropa və Azərbaycandakı mədəni irəliləyişləri, dəyişiklikləri, inkişaf və fərqlilikləri aydın şəkildə şagirdlərə göstərə bilər. Bu zaman müəllim şagirdləri lövhəyə dəvət edə bilər və bu fərqlilikləri onların özünün tapmasını istəyərək onların özünün araşdırmaçılıq, tədqiqatçılıq bacarıqlarından istifadə edə bilər.

Müəllim həmçinin yenə fənlərarası inteqrasiyadan istifadə edərək, ərəb işğalları dövrünü misal göstərərək onun Monqol işğalı dövründən fərqini və onun mədəni münasibətə təsirini göstərə bilər. Misal üçün, ərəb işğalından sonra Azərbaycanda islam dinin yayılması ilə əlaqədar olaraq memarlıqda məscid, mədrəsə, karvansaralar türbələr tikilməyə başlanmışdır. Lakin monqol işğalları dövründə mədəni sahədə geriliyin olduğunu mədrəsələrin, məscidlərin dağıdıldığını qeyd edə bilər.

Yuxarıda qeyd etdiklərimizdən belə nəticəyə gələ bilərik ki, tarix fənni özündə tarixi fakt

və hadisələri ehtiva etdiyinə görə, digər fənlər ilə asanlıqla qarşılıqlı əlaqəsini verir. Lakin bunu da qeyd etməliyik ki, fənlərarası və fəndaxili inteqrasiya müəllimin özündən də dərin bilik, zəngin dünyagörüşü güclü bədii təxəyyül, tədris etdiyi fənnə sonsuz sevgi və daim öz üzərində işləmək tələb edir. Düşünürəm ki, bu keyfiyyətə sahib olmadan inteqrasiya və fənlərin qarşılıqlı əlaqəsini qurmaq mümkün deyildir. İnteqrasiyanın şagird təfəkküründə və onun yaradıcı tətbiqetmə sahəsində əhəmiyyəti çox yüksəkdir. Burunla da inteqrasiya şagirdlərdə plan tərtib etmək üçün maraq və bacarığı artırır, yeni biliklərin əldə edilməsinə zəmin yaradır, dərsə daha çox yaradıcı yanaşmanı və tətbiqetmə xüsusiyyətini formalaşdırır.

**Məqalənin aktuallığı.** İnteqrasiya fənlərarası bilik və bacarıqların əlaqəli mənimsənilməsinə şərait yaradır. Şagirdlərin qısa zaman müddətində həm çox, həm də faydalı biliklər əldə etmələri ilə yanaşı elmi dünyagörüşlərini formalaşır. Məqalənin də aktuallığı onun məhz bu kimi vacib bir mövzuya həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə irəli sürülən fikir, mülahizələr və əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan tarixi – 10: Dərslik. Bakı, 2018.
2. Azərbaycan tarixi – 10: Metodik vəsait. Bakı, 2017.
3. Azərbaycan Respublikasının ümumitəhsil məktəbləri üçün "Azərbaycan tarixi" fənni üzrə təhsil proqramı (kurikulum). Bakı, 2013.
4. İ. Cəbrayılov. Tarixin tədrisi metodikası. Bakı, 2004.
5. T. İsayeva. Ümumtəhsil məktəblərin "Azərbaycan tarixi" fənninin tədrisində mətn üzərində işin təşkili. Bakı, 2021.
6. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Azərbaycan Kurikulumu" jurnalı. Bakı, 2010.

**A.A. Məmmədova**

## Роль интеграции 10 класса в истории Азербайджана на тему "Культура XIII-XV веков"

## Резюме

В статье обосновывается актуальность проблемы. На уроках истории Азербайджана в общеобразовательных школах развитие культуры Азербайджана XIII-XV веков, исторические условия оценивались с точки зрения социально-экономического положения. Роль интеграции в преподавании истории и ее положительное влияние на качество преподавания были даны в оценке азербайджанской культуры как составной части тюрко-исламской культуры.

**A.A. Məmmədova**

## The role of integration of X class on the history of Azerbaijan on “Culture in XIII-XV centuries”

### Summary

The article substantiates the urgency of the problem. In the history lessons of Azerbaijan in general education schools, the development of the culture of Azerbaijan “XIII-XV centuries, the historical conditions were assessed in terms of socio-economic situation. The role of integration in history teaching and its positive impact on the quality of teaching were given in the assessment of Azerbaijani culture as an integral part of Turkish-Islamic culture.

**Redaksiyaya daxil olub:** 26.04.2022